I.**Peşəkar biliklər**

**Standart 1. Şagirdlərə və materialın onlar tərəfindən mənimsənilməsinə bələd olmalı**

| **Bilik sahəsi** | **Səviyyələr/karyera mərhələləri** | | | |
|---|---|---|---|---|
| | **Məzun** | **İxtisaslı müəllim** | **Yüksəkixtisaslı müəllim** | **Lider müəllim** |
| 1.1. Şagirdlərin fiziki, sosial və intellektual inkişafı və onların intellektual xüsusiyyətləri | Şagirdlərin fiziki, sosial və intellektual inkişafına, şəxsi keyfiyyətlərinə bələd olmalı və onların təlim prosesinə necə təsir etməsini anlamalı və bu sahədə bilik nümayiş etdirməli | Şagirdlər tərəfindən tədris materialının mənimsənilməsini yaxşılaşdırmaq məqsədilə onların fiziki, sosial və intellektual inkişafına, şəxsiyyət keyfiyyətlərinə əsaslanan təlim strategiyalarından isifadə etməli | Şagirdlərin fiziki, sosial və intellektual inkişafına, şəxsi keyfiyyətlərinə daha çox uyğun olan effektiv və çevik təlim strategiyalarını seçməli | Şagirdlərin fiziki, sosial və intellektual inkişafı, şəxsiyyət keyfiyyətləri barədə biliklərə əsaslanmaqla tədris olunan materialın onlar tərəfindən mənimsənilməsi prosesini yaxşılaşdıran təlim strategi-yalarının seçilməsi və mənimsənilməsində həmkarlarına kömək göstərməli |
| 1.2. Şagirdlər tərəfindən tədris materialının mənimsənilməsi prosesini anlamalı | Təlim prosesinin tədqiqatı və onun tədris üçün əhəmiy-yətini anlamalı və bilik-lərini nümayiş etdirməli | Tədqiqatların nəticələrinə və həmkarlarının təcrübəsinə əsaslanaraq özünün tədris proqramını tərtib etməli | Pedaqoji tədqiqatlara və praktik təcrübəyə əsaslanaraq materialın şagirdlər tərəfindən mənimsənilməsi prosesini anladığını dərinləşdirməli | Pedaqoji tədqiqatlara və praktik təcrübəyə əsalanaraq tədris proqramlarının effektiv-liyinin qiymətləndirilməsində rəhbər olmalı |
| 1.3. Müxtəlif linqvistik, mədəni, dini təcrübəyə və sosial-iqtisadi duruma malik şagirdlər | Müxtəlif linqvistik, mədəni, dini təcrübəyə və sosial-iqtisadi duruma malik şagirdlər tərəfindən materia-lın mənimsənilməsi qabiliy-yəti nəzərə alınmaqla təhsil strategiyasına yiyələndiyini nümayiş etdirməli | Müxtəlif sosial-iqtisadi, linqvistik, mədəni, dini qruplardan olan şagirdlərin tələbat və imkanlarına müvafiq olan təlim priyomlarını işləyib hazırlamalı və tətbiq etməli | Müxtəlif sosial-iqtisadi, linqvistik, mədəni, dini qruplardan olan şagirdlərin tələbatlarına müvafiq olan effektiv təlim strategiyalarının hazırlanmasında həmkarlarına kömək göstərməli | Həmkarlarınn təcrübəsinə və ekspert qiymətləndirməsinə əsaslanaraq müxtəlif sosial-iqtisadi, linqvistik, mədəni, dini qruplardan olan şagirdlərin tələbatlarının nəzərə alınması məqsədilə təlim proqramlarını daim qiymətləndirməli və korrektə etməli |
| 1.4.Yerli ailələrdən olan uşaqların təlimi strategiyası | Ana dili və mədəni identivliyin yerli alilələrdən olan uşaqların təhsilinə təsirinə dair dərin biliklər və anlayış nümayiş etdirməli | Yerli əhalinin ənənələrinə, doğma dilinə, tələbat və mədəniyyətinə cavab verən effektiv təlim strategiyalarını işləyib hazırlamalı və tətbiq etməli | İcma nümayəndələrinin dəstəyindən və yerli şəraitlə tanışlığından istifadə edərək yerli ailələrdən olan uşaqlar üçün effektiv təlim strategiyalarının həyata keçirilməsində həmkarlarına dəstək göstərməli | Yerli ailələrdən olan məktəblilərin tədris prosesində fəal iştirakını nəzərdə tutan tədris proqramlarını işləyib hazırlamalı, valideynlər və yerli icma nümayəndələri ilə əməkdaşlıq şəraitini yaratmalı |

| | | | | |
|---|---|---|---|---|
| 1.5.Şagirdlərin müxtəlif tələbatlarının ödənilməsi məqsədilə tədris prosesinin diferensiallaşdırılması | Şagirdlərin tədris prosesində müxtəlif tələbatlarının ödənilməsinə imkan verən diferensiallaşmış təlim strategiyaları barədə biliklərini və anlayışlarınl nümayiş etdirməli | Şagirdlərin tədris prosesində müxtəlif tələbatlarının ödənilməsinə imkan verən diferensiallaşmış təlim strategiyalarına əsaslanan məşğələlər işləyib hazırlamalı | Müxtəlif qabiliyyət və tələbatlara malik olan şagirflərin müvəffəqiyyət dərəcələrinin təhlili əsasında təlim proqramlarının effektivliyini qiymətləndirməli | Qanunvericiliyin tələbləri və metodik göstərişlər nəzərə alınmaqla sağlamlıq imkanları məhdud şagirdlərin təhsil prosesinə cəlb olunmasına yönəlik proqramların işlənib hazırlanmasında təşəbbüs göstərməli |
| 1.6. Məhdud imkanlı şagirdlərin təhsil prosesində fəal iştirakını təmin edən pedaqoji strategiyalar | Məhdud imkanlı şagirdlərin təhsilinə dəstək göstərilməsinə yönəldilmiş təhsil strategiyaları və qanunvericiliyin tələblərini anladığını və biliklərə malik olduğunu nümayiş etdirməli | Qanunvericiliyin tələblərinə və metodik tövsiyələrə əsaslanaraq məhdud imkanlı şagirdlərin təhsilinə dəstək göstərən təlim formalarını işləyib hazırlamalı və tətbiq etməli | Məhdud imkanlı şagirdlərin təhsili prosesində tətbiq olunan təlim proqramlarının işlənib hazırlanmasında, qanunvericilik və metodik tövsiyələrin mənimsənilməsində, xüsusi biliklərə yiyələnmələrində həmkarlarına kömək göstərməli | Qanunvericiliyin tələbləri və metodik göstərişlər nəzərə alinmaqla sağlamlıq imkanları məhdud olan şagirdlərin təhsil prosesinə cəlb olunmasına yönəlik proqramların işlənib hazırlanmasında təşəbbüs göstərməli |

**Standart 2. Tədris materiallarının məzmununu və təlim metodlarını bilməli**

| Bilik sahəsi | Səviyyələr/karyera mərhələləri | | | |
|---|---|---|---|---|
| | **Məzun** | **İxtisaslı müəllim** | **Yüksəkixtisaslı müəllim** | **Lider müəllim** |
| 2.1.Bilik sahəsində təlim metodları və onların məzmunu | Tədris materiallarının məzmunu və strukturunun əsas anlayışlarını, eləcə də müvafiq tədris fənninin öyrədilməsi strategiyasını (metodlar) anladığını və biliklərini nümayiş etdirməli | Məşğələlərin planlaşdırılması zamanı müvafiq fənnin tədrisi strategiyası və onun məzmununa dair bilik və anlayışlarını nümayiş etdirməli | İnteraktiv tədris proqramlarının yaradılması və tətbiqində təhsilin strategiyası və onun məzmununa bələd olması təcrübəsinə əsaslanaraq həmkarlarına kömək göstərməli | Məktəbdə təlim metodları və onların məzmununun yaxşılaşdırılması və təhlilinin aparılmasına dair təşəbbüsləri dəstəkləməli, eləcə də fənlər üzrə nümunəvi dərslər (ustad dərslər) keçməli |
| 2.2.Təhsilin məzmununu seçməli və təşkil etməli | Təlim materiallarını effektiv tədris ardıcıllığı ilə qurmalı | Təhsilin məzmununu təlim proqramlarının əlaqəli bölmələri ilə ardıcıllığını qurmalı | Tədris materiallarının seçilməsi və təşkilində innovativ yanaşmalar tətbiq etməli | Tədris proqramlarına bələd olmasından istifadə edərək materialların seçimi və onların tədris prosesində təqdim olunmasını yaxşılaşdırmaq üçün təşəbbüs göstərməli |
| 2.3.Tədris proqramları, qiymətləndirmə və hesabatlılıq | Tədris proqramları, hesabatlılıq və qiymətləndirmə üsulları barədə bilikləri əsasında tədris proqramları və dərs planlarının davamlılığını işləyib hazırlamalı | Tədris proqramları, qiymətləndirmə tələbləri və hesabatlılıq əsasında tədris materialları yaratmalı və həyata keçirməli | Praktik təcrübə və tədris proqramları, qiymətləndirmə tələbləri və hesabatlılıq əsasında tədris materiallarının planlaşdırılması və həyata keçirilməsində həmkarlarına kömək göstərməli | Tədris proqramları, qiymətləndirmə tələbləri və hesabatlılıq əsasında tədris materiallarının hazırlanması üzərində işləyən həmkarlarına rəhbərlik etməli |

| | | | | |
|---|---|---|---|---|
| 2.4.Yerli əhaliyə hörmətlə yanaşmalı, yerli və gəlmə əhali arasında qarşılıqlı anlaşma mühitinin yaradılmasına kömək göstərməli | Yerli əhalinin mədəniyyəti, dili və ənənələrinə bələd olduğunu və hörmət bəslədiyini nümayiş etdirməli | Şagirdlərinin yerli əhalinin mədəniyyəti, dili və ənənələrinə hörmət və anlayış göstərmələrini inkişaf etdirmələrinə imkan yaratmalı | Şagirdlərdə yerli əhalinin mədəniyyəti, dili və ənənələrinə hörmət və anlayış göstərilməsini inkişaf etdirmək üçün şəraitin yaradılmasında həmkarlarına kömək göstərməli | Şagirdlərdə yerli əhalinin mədəniyyəti, dili və ənənələrinə hörmət və anlayışın inkişaf etdirilməsi üçün şərait yaradan həmkarlarına kömək göstərilməsində təşəbbüs nümayiş etdirməli |
| 2.5.Oxu, yazı və hesablama təlim strategiyası (savadlılığın inkişaf etdirilməsi) | Oxu, yazı və hesablama təlim strategiyalarına və onların müəllimlik praktikasında tətbiqini anlamalı və bilməli | Oxu, yazı və hesablama vərdişlərinin yaxşılaşdırılmasına imkan verən effektiv təlim strategiyalarını bilməli və tətbiq etməli | Şagirdlərin oxu, yazı və hesablama sahəsində vərdişlərinin yaxşılaşdırılması məqsədilə effektiv təlim strategiyalarının tətbiqində həmkarlarına kömək göstərməli | Tədqiqatlar və şagirdlərin müvəffəqiyyət səviyyəsinə dair məlumatlar əsasında şagirdlərdə oxu, yazı və hesablama vərdişlərini yaxşılaşdırmağa imkan verən strategiyaların məktəbdə tətbiqi prosesini izləməli |
| 2.6. İnformasiya-kommunikasiya texnologiyaları (İKT) | Tədris proqramlarının şagirdlər tərəfindən mənimsənilməsi imkanlarının genişləndirilməsi məqsədi ilə İKT sahəsində təlim strategiyalarını tətbiq etməli | Tədris proqramlarının müvafiq bölmələrində İKT-nin tətbiqi üçün effektiv təlim strategiyaları tətbiq etməli | Öz həmkarlarına onların fəaliyyətinin təkmilləşdirilməsi üçün İKT vasitələrindən istifadə etməkdə kömək etməli, yüksək səviyyəli bilik və bacarıqlarını göstərməli | Bütün şagirdlər tərəfindən biliklərin mənimsənilməsi imkanlarının genişləndirilməsi məqsədilə effektiv təlim strategiyaları çərçivəsində İKT vasitələrinin seçilməsi və istifadəsində lider olmalı |

**II. Peşə praktikası**
**Standart 3. Tədris və təlimin effektiv metodlarını hazırlamalı və tətbiq etməli**

| Bilik sahəsi | Səviyyələr/karyera mərhələləri | | | |
|---|---|---|---|---|
| | **Məzun** | **Təcrübəli/ixtisaslı müəllim** | **Yüksəkixtisaslı müəllim** | **Lider müəllim, rəhbər** |
| 3.1.Təlimin stimullaşdırıcı məqsədlərinin müəyyən edilməsi | Müxtəlif qabiliyyət və imkanlara malik şagirdləri stimullaşdıran təlim məqsədlərini müəyyən etməli | Bütün şagirdlər üçün mümkün və dəqiq ifadə olunmuş təlim məqsədlərini müəyyən etməli | Stimullaşdırıcı təlim məqsədlərinin modelləşdirilməsi və qurulması yolu ilə bütün şagirdlər üçün yüksək gözləntilər mühitinin yaradılmasına kömək göstərməli | Nümunəvi pedaqoji iş nümayiş etdirməli və bütün təlim prosesi müddətində həmkarlarına öz şagirdlərinin yüksək hədəflərə nail olmasında kömək etməli |
| 3.2 Tədris proqramlarının bölmələrinin məntiqi ardıcıllıqla planlaşdırılması | Təlim metodlarının məzmunu və effektivliyinə əsaslanarq dərslərin ardıcıllığını planlaşdırmalı | Strukturlaşdırılmış təlim proqramlarını və ya şagirdlərdə fənnə maraq oyadan dərslərin ardıcıllığını planlaşdırmalı və həyata keçirməli | Təlim proqramlarının hazırlanmasında və qiymətləndirilməsində həmkarlarına kömək göstərməli, bütün şagirdlər üçün münbit təhsil mühitinin yaradılmasına çalışmalı | Nümunəvi pedaqoji iş nümayiş etdirməli və təlim proqramının hazırlanması, həyata keçirilməsi və effektivliyinin qiymətləndirilməsində həmkarlarına köməklik göstərməli |
| 3.3. Təlim strategiyalarının ( metodlar) tətbiqi | Təlim strategiyalarının geniş spektrindən istifadə etməli | Bilik və vərdişlərini, problemləri həll etmək bacarıqlarını, analitik və yaradıcı təfəkkürü inkişaf etdirən uyğun təlim strategiyalarını seçməli və istifadə etməli | Bilik və vərdişlərini, problemləri həll etmək bacarıqlarını, analitik və yaradıcı təfəkkürü inkişaf etdirən effektiv təlim strategiyalarının seçilməsi və tətbiqində həmkarlarına kömək etməli | Həmkarları ilə birlikdə şagirdlərin bilik və vərdişlərini, problemləri həll etmək bacarıqlarını, analitik və yaradıcı təfəkkürü inkişaf etdirməyə imkan verən təlim strategiyaları seçiminin genişləndirilməsində iştirak etməli |

| | | | | |
|---|---|---|---|---|
| 3.4 Təhsil resurslarının seçilməsi və istifadə | İKT daxil olmaqla resursların geniş diapazonuna sahib olduğunu nümayiş etdirməli | İKT daxil olmaqla uyğun resursları seçməli və ya yaratmalı | İKT daxil olmaqla müxtəlif resursların yaradılması və tətbiqi üzərində işlərdə həmkarlarına kömək etməli | Nümunəvi pedaqoji priyomlar nümayiş etdirməli, məktəbdə və məktəbdən kənarda istifadə üçün İKT də daxil olmaqla effektiv resursların seçilməsi, yaradılması və qiymətləndirilməsində həmkarlarına kömək etməli |
| 3.5. Sinifdə kommunikasiya vasitələrindən səmərəli istifadə | Şagirdlərin tədris prosesinə cəlb olunmasına yönəlmiş müxtəlif verbal və qeyri-verbal kommunikasiya vasitələrini nümayiş etdirməli | Şagirdlərin yüksək nailiyyətlər əldə etməsinə kömək edən effektiv verbal və qeyri- verbal kommunikasiya strategiyalarını tətbiq etməli | Şagirdlərin yüksək nailiyyətlər əldə etməsinə kömək edən verbal və qeyri- verbal kommunikasiya strategiyalarının seçimində həmkarlarına kömək göstərməli | Şagirdlərin yüksək nəticələr qazanmasına kömək edən əməkdaşlıq və kontekstual əlaqə strategiyasından istifadə etməklə verbal və qeyri-verbal kommunikasiyaların nümunəvi tətbiqini nümayiş etdirməli |
| 3.6. Təlim proqramlarının təkmilləşdirilməsi və qiymətləndirmə | Öz işində təlim proqramlarının qiymətləndirilməsində istifadə olunan strategiyaların geniş spektrinə dair biliklərini nümayiş etdirməli | Şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə məlumatlar və əks-əlaqə əsasında özünün hazırladığı təlim strategiyalarını qiymətləndirməli | Şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə məlumatlardan və əks-əlaqədən istifadə etməklə təlim strategiyalarının qiymətləndirilməsində həmkarlarına kömək etməli | Müxtəlif informasiya mənbələrindən - şagird nailiyyətlərinin qiymətləndirilməsi, tədris proqramları, pedaqoji təcrübə və valideynlər, şagirdlər, həmkarları ilə əks-əlaqədən istifadə etməklə müntəzəm surətdə təlim proqramlarının qiymətləndirilməsini aparmalı |
| 3.7 Valideynlərin təhsil prosesinə cəlb olunması | Valideynlərin təhsil prosesinə cəlb olunması üzrə geniş, əhatəli strategiyaları bilməli | Uşaqların təhsili prosesinə onların valideynlərinin cəlb olunması istiqamətində tədbirlər planlaşdırmalı | Uşaqların təhsili prosesinə onların valideynlərinin cəlb olunması istiqamətində tədbirlərin planlaşdırılmasında həmkarlarına kömək göstərməli | Məktəbin həll olunası vəzifələrinin dairəsini genişləndirmək üçün uşaqların təhsili prosesinə onların valideynlərinin cəlb olunması istiqamətində tədbirlər həyata keçirməli |

**Standart 4. Təhlükəsiz və münbit təhsil mühiti yaratmalı və qorumalı**

| **Bilik sahəsi** | **Səviyyələr/karyera mərhələləri** | | | |
|---|---|---|---|---|
| | **Məzun** | **İxtisaslı müəllim** | **Yüksəkixtisaslı müəllim** | **Lider müəllim** |
| 4.1. Bütün şagirdlərin tədris prosesində iştirakının dəstəklənməsi | Bütün şagirdlərin təlim prosesində iştirakına xidmət edən təlim strategiyalarını tapmalı | Bütün şagirdlərin tədris prosesinə cəlb olunması üçün pozitiv əməkdaşlıq mühiti yaratmalı | Effektiv pedaqoji priyomlar modelləşdirməli və bütün şagirdlərin tədris prosesinə cəlb olunması üçün onların tətbiqində həmkarlarına kömək göstərməli | Bütün şagirdlərin təlim prosesinə cəlb olunması üzrə yeni yanaşmaları praktikada yoxlamaqla və müvafiq strategiyaları seçməklə məktəbdə məhsuldar mühitin yaradılmasında həmkarlarına öz işi ilə nümunə göstərməli |
| 4.2. Sinifdə tədris prosesinin təşkili | Tədris prosesinə dəqiq və inamla rəhbərlik etməli, sinifdə işin təşkili qabiliyyətini nümayiş etdirməli | Sinifdə şagirdlərin əsas vaxtlarını dərs tapşırıqlarının həllinə həsr edəcəkləri işgüzar mühit və qayda-qanun yaratmalı | Bütün uşaqların dərs tapşırıqlarının yerinə yetirilməsində məşğulluğunu təmin etməklə sinifdə işin idarə olunması strategiyalarının çevik dəstini yaratmalı və onları həmkarları ilə bölüşməli | Şagirdlərdə yerinə yetirilən tapşırıqlara, tədris işlərinə görə məsuliyyət hissini inkişaf etdirməklə sinifdə effektiv idarəetmə metodlarının tətbiqində təşəbbüs göstərməli və həmkarlarına kömək göstərməli |

| | | | | |
|---|---|---|---|---|
| 4.3.Şagirdlərin davranışlarının idarə olunması | Sinifdə davranışların idarə olunması üzrə praktik priyomlara dair biliklərini nümayiş etdirməli | Nizam-intizamın pozulmasına vaxtında reaksiya bildirməklə, şagirdlərə ədalət və hörmətlə yanaşmaqla, onlara dəqiq tələblər müyyən etməklə davranışlarını idarə etməli | Özünün praktik təcrübəsinə və elmi işləmələrə əsaslanaraq şagirdlərin davranışlarının çevik idarə olunması dəstini yaratmalı və həmkarları ilə bölüşməli | Sinifdə şagirdlərin davranışlarının idarə olunması proqramlarının həyata keçirilməsi üzrə təşəbbüs göstərməli, bu sahədə öz həmkarlarında pedaqoji priyomlar dəstini genişləndirməli |
| 4.4. Şagirdlərin təhlükəsizliyinin təmin olunması | Tədris proqramı və qanunvericiliyin tələbləri nəzərə alınmaqla məktəbdə şagirdlərin təhlükəsizliyinin və sağlamlığının qorunmasına yönəlmiş strategiyaları bilməli | Tədris proqramı və qanunvericiliyin tələbləri əsasında şagirdlər üçün təhlükəsiz və sağlam mühiti təmin etməli | Şagirdlərin təhlükəsizliyi və sağlamlığını təmin edən tələblərin yerinə yetirilməsində təşəbbüs göstərməli | Məktəbdə tədris proqramı və qanunvericiliyin tələblərini yerinə yetirməklə uşaqların sağlamlığının mühafizəsi və şagirdlər üçün təhlükəsiz mühitin yaradılması üzrə tədbirlərin effektivliyini qiymətləndirməli; bu məsələdə həmkarlarına kömək etməli |
| 4.5. İKT vasitələrindən təhlükəsiz, məsuliyyətli və etik istifadə | Tədris prosesində İKT-dən təhlükəsiz, məsuliyyətli və etik istifadə olunması strategiyalarına və problemlərinə bələd olduğunu nümayiş etdirməli | Tədris prosesində İKT-dən təhlükəsiz, məsuliyyətli və etik istifadəni təmin edən strategiyaları tətbiq etməli | Tədris prosesində İKT-nin təhlükəsiz, məsuliyyətli və etik istifadəsinə yönəlik strategiyaları yaratmalı və həmkarları ilə bölüşməli | Tədris prosesində İKT-dən təhlükəsiz, məsuliyyətli və etik istifadəni təmin edən yeni strategiyaları yaymalı |

**Standart 5. Şagirdlərin müvəffəqiyyət səviyyəsinin, hesabatlılığın, təhsilalanlarla əks-əlaqənin qiymətləndirilməsini həyata keçirməli**

| Bilik sahəsi | Səviyyələr/karyera mərhələləri | | | |
|---|---|---|---|---|
| | Məzun | İxtisaslı müəllim | Yüksəkixtisaslı müəllim | Lider müəllim |
| 5.1 Şagirdlərin müvəfəqiyyət səviyyəsinin qiymətləndirilməsi | Formal və qeyri-formal qiymətləndirməni, qiymətləndirməyə diaqnostik, kəmiyyət və keyfiyyət yanaşmalarını özündə birləşdirən qiymətləndirmə strategiyalarından anlayışlı olduğunu nümayiş etdirməli | Formal və qeyri -formal qiymətləndirməni, qiymətləndirməyə diaqnostik, kəmiyyət və keyfiyyət yanaşmalarını özündə birləşdirən qiymətləndirmə strategiyalarını yaratmalı, seçməli və istifadə etməli | Tədris proqramlarının tələbləri çərçivəsində şagirdlərin təhsil ehtiyaclarının müəyyən edilməsi məqsədilə ümumiləşdirici qiymətləndirmə strategiyaları yaratmalı və tətbiq etməli; şagirdlərin müvəffəqiyyət dərəcəsinin qiymətləndirilməsi metodlarının effektivliyinin təhlilində həmkarlarına kömək göstərməli | Tədris proqramları çərçivəsində şagirdlərin təhsil ehtiyaclarının müəyyən edilməsi məqsədilə qiymətləndirmə nəticələrinin isifadə olunmasında həmkarlarına kömək etməli, məktəbdə tətbiq olunan müvəffəqiyyət dərəcəsinin qiymətləndirmə sistemini təhlil etməli |

| | | | | |
|---|---|---|---|---|
| 5.2. Tədris prosesində şagirdlərlə əks-əlaqə | Tədris prosesində şagirdlərlə vaxtında aparılan və əsaslandırılmış əks-əlaqənin məqsədlərindən anlayışlı olduğunu nümayiş etdirməli | Şagird nailiyyətlərinin müəyyən edilməsi üçün onlarla vaxtında və əsaslandırılmış əks-əlaqəni həyat keçirməli | Məqsədli əks-əlaqəni təmin edən və şagirdlərin təhsil ehtiyacları haqqında əsaslandırılmış mülahizələrin çıxarılmasına imkan verən səmərəli təhsil strategiyası seçməli | Nümunəvi pedaqoji təcrübə nümayiş etdirməli və şagirdlərlə vaxtında səmərəli əks-əlaqə strategiyaları dəstindən istifadə olunmasında həmkarlarına yardım proqramlarına başlamalı |
| 5.3 Əsaslandırılmış və informativ qiymətləndirmə | Qiymətləndirmə prosedurunun əhəmiyyəti və onun nəticələrinin şagirdlərin müvəffəqiyyət dərəcəsi barədə mülahizələrin çıxarılmasında tətbiq oluna bilməsinə dair anlayışlı olduğunu nümayiş etdirməli | Qiymətləndirmə prosedurunu həyata keçirməli, şagirdlərin müvəffəqiyyət dərəcəsi haqqında əsaslandırılmış mülahizələr irəli sürməli | Şagirdlərin müvəffəqiyyət dərəcəsi barədə əsaslandırılmış mülahizələr çıxarmalı, qiymətləndirmə prosedurunu təşkil etməli | Tədris proqramının yerinə yetirilməsi məqsədilə şagirdlərin müvəffəqiyyət dərəcəsi barədə əsaslandırılmış mülahizələrin çıxarılmasını təmin edən qiymətləndirmə prosedurunda lider olmalı |
| 5.4. Şagirdlərin qiymətləndirmə nəticələrinin şərhi | Tədris prosesinin təkmilləşdirilməsi məqsədilə şagirdlərin müvəffəqiyyət dərəcəsinin qiymətləndirilməsi nəticələrini şərhetmə qabiliyyətini nümayiş etdirməli | Şagird nailiyyətlərinin qiymətləndirilməsi nəticələri əsasında zəif yerləri müəyyən etməklə və tədris prosesini yaxşılaşdırmaqla tədris fənninin məzmununun onlar tərəfindən necə mənimsənilməsini təhlil etməli | Tədris prosesinin effektivliyinin və materialın mənimsənilməsinin qiymətləndirilməsi üçün şagirdlərin müvəffəqiyyət dərəcəsinin daxili və xarici test imtahanlarının nəticələrindən istifadə olunmasında həmkarlarına kömək göstərməli | Şagirdlərin müvəffəqiyyət dərəcəsinin daxili və xarici test imtahanlarının nəticələrinə əsasən tədris prosesini təkmilləşdirməli |
| 5.5. Şagirdlərin müvəffəqiyyət dərəcəsinin qiymətləndirilməsi nəticələri üzrə hesabatlılıq | Şagirdlərin müvəffəqiyyət dərəcəsinin qiymətləndirilməsi barədə təhsilalanlar və onların valideynlərinin məlumatlandırılması strategiyasından, eləcə də nailiyyətlərin dəqiq və etibarlı qeyd olunma prosesi barədə anlayışlı olduğunu nümayiş etdirməli | Etibarlı qiymətləndirmə prosedurları əsasında şagirdlər və onların valideynləri üçün təhsilalanların müvəffəqiyyət dərəcəsi barədə aydın, dəqiq və şagirdə münasibətdə onu üzməyən hesabatlar hazırlamalı | Şagirdlər və onların valideynləri üçün təhsilalanların müvəffəqiyyət dərəcəsinə dair aydın, informativ və vaxtında olan hesabatların tərtib olunmasında həmkarlarına kömək etməli | Şagirdlər, onların valideynləri və öz həmkarlarının tələbatlarının təmin olunması məqsədilə hesabatların keyfiyyətini qiymətləndirməli, məktəb çərçivəsində təhsilalanların müvəffəqiyyət dərəcəsinin qiymətləndirilməsi prosedurunu yaxşılaşdırmalı |

**III. Peşə inkişafı**

**Standart 6. Öz ixtisasını artırmalı**

| **Bilik sahəsi** | **Səviyyələr/karyera mərhələləri** | | | |
|---|---|---|---|---|
| | **Məzun** | **İxtisaslı müəllim** | **Yüksəkixtisaslı müəllim** | **Lider müəllim, rəhbər** |

| | | | | |
|---|---|---|---|---|
| 6.1.İxtisasartırmaya tələbatın müəyyən olunması və peşə inkişafının planlaşdırılması | Özünün peşəkar pedaqoji tələbatlarının müəyyən olunması üçün Avstraliya-da müəllimlərin peşə stan-dartının əhəmiyyətini an-ladığını nümayiş etdirməli | Özünün peşəkar pedaqoji tələbatlarının müəyyən olunması üçün müəllimin peşə standartından və həmkarlarının məsləhətlərindən istifadə etməli | Müəllimin peşə standartının təhlili əsasında özünün peşəkar inkişafını planlaşdırmalı, həmkarlarına peşəkar inkişafın məqsədlərini müəyyən etməkdə kömək etməli | Müəllimin peşə standartına dərindən bələd olmasına əsaslanaraq məktəbdə peşəkar inkişaf proqramını planlaşdırmalı |
| 6.2. Özünün peşə səviyyəsini yüksəltməli və öz işini təkmilləşdirməli | Peşə inkişafının formalarını bilməli və zəruriliyini anlamalı | Məktəbin prioritetlərinə əməl etməklə öz işlərini təkmil-ləşdirməli, biliklərini dərinləşdirməli | Pedaqoji tədqiqatlara əsaslanaraq özünün peşəkar inkişafını plan-laşdırmalı, öz ixtisasını artırmaq üçün müxtəlif imkanlardan istifadə etməli | Həmkarlarının peşə inkişafına xidmət edən əməkdaşlıq mühiti yaratmalı, məktəbdə tədris prosesinin keyfiyyətinin artırılması üçün tədqiqatlar aparmalı, təcrübəçilərə kömək göstərməli |
| 6.3 Kollektivlə əməkdaşlıq və pedaqoji işin keyfiyyətinin yaxşılaşdırılması | Öz işlərini yaxşılaşdırmaq məqsədi ilə müəllimlər və təlimatçılarla əks-əlaqədən istifadə | Peşə bilikləri və bacarıqlarının artırılması yollarını həmkarları ilə müzakirə etməli | Şagirdlərin müvəffəqiyyət dərəcəsini artırmaq məqsədilə öz bilik və bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif forumlarda, peşəkar diskussiyalarda iştirak etməli | Şagird nailiyyətlərinin səviyyəsini artırmaq məqsədilə məktəbdə və ya internet forumlarda pedaqoji tədqiqatlar və həmkarlarla təcrübənin peşəkar müzakirəsini aparmalı |
| 6.4.Peşəkar biliklərin tətbiqi və şagirdlərin mənimsəmə səviyyəsinin yüksəldilməsi | Tədris prosesinin təkmil-ləşdirilməsi məqsədi ilə özünün ixtisas səviyyəsinin artırılması üçün peşəkar biliklərdən anlayışlı ol-duğunu nümayiş etdirməli | Şagirdlərin tələbatlarını həll etməyə imkan verən innovativ pedaqoji proqramlarda iştirak etməli | Tədris prosesinin təkmilləşdirilməsi üçün ixtisasartırma proqramlarının effektivliyinin qiymətləndirilməsində həmkarları ilə əməkdaşlıq etməli | Pedaqoji işin keyfiyyətini və şagirdlərin mənimsəmə səviyyəsini artırmağa imkan verən innovativ pedaqoji strategiyaları həmkarları arasında təbliğ etməli və həyata keçirməli |

**Standart 7. Yerli icma, valideynlər və həmkarlarla peşəkar əməkdaşlıq**

| **Bilik sahəsi** | **Səviyyələr/karyera mərhələləri** | | | |
|---|---|---|---|---|
| | **Məzun** | **İxtisaslı müəllim** | **Yüksəkixtisaslı müəllim** | **Lider müəllim** |
| 7.1. Peşə etik normalarına və bu sahədə vəzifələrə əməl olunması | Öz fəaliyyətində pedaqoqun peşəkar davranış və etik kodeksinin əsas prinsiplərini bilməli və tətbiq etməli | Təhsil sistemi və məktəb tərəfindən müəyyən olunmuş peşəkar davranış və etik kodeksin tələblərinə əməl etməli | Yüksək etik normaları əsas tutmalı, bu kodeksin normalarına əməl olunmasında həmkarlarına kömək etməli, məktəbdə və yerli icmada üzə çıxan bütün problemlərlə bağlı əsaslandırılmış mülahizələr söyləməli | Şagirdlər, həmkarlar və yerli icma ilə əlaqədə üzə çıxan problemlərlə bağlı əsaslandırılmış mülahizələr söyləməli,etik davranış nümunəsi göstərməli |
| 7.2. Qanunvericilik və administrativ tələblərə əməl etməli | Pedaqoqun məktəbdə fəa-liyyəti ilə bağlı əsas qa-nunvericilik və adminis- | Pedaqoqun məktəbdə fəaliyyəti ilə bağlı əsas qanunvericilik və administrativ aktları və qərarların | Pedaqoqun məktəbdə fəaliyyəti ilə bağlı əsas qanunvericilik və administrativ aktlar, qərarlarla | Həmkarlarının pedaqoqun məktəbdə fəaliyyəti ilə bağlı mövcud, yeni qanunve-ricilik və administrativ aktlar və qərarlara |

| | | | | |
|---|---|---|---|---|
| | trativ aktları və qərarların mənasını anlamalı | əhəmiyyətini anlamalı və onlara əməl etməli | həmkarlarını tanış etməli və onların mənasını izah etməli | uyğun işləməsinə imkan verən prosedurlar yaratmalı və onları həyata keçirməli |
| 7.3. Valideynlərlə qarşılıqlı əlaqə | Valideynlərlə işin effektiv, etibarlı və konfidensial strategiyalarını bilməli | Uşaqların dərsə davamiyyəti və onların sağlamlığı məsələləri ilə bağlı valideynlərlə iş gedişində qarşılıqlı etimad mühitini yaratmalı və dəstəkləməli | Uşaqların dərsə davamiyyəti və onların sağlamlığı məsələlərində valideynlərlə münasibətlərdə ehtiram və qayğıkeşlik nümayiş etdirməli | Valideynlərin məktəbin işi və onların uşaqlarının davamiyyəti ilə bağlı müzakirələrə cəlb olunması imkanlarını tapmalı və istifadə etməli |
| 7.4. İnternetdə peşəkar şəbəkələrin işində iştirak etməli və özünün peşəkar əlaqələrinin dairəsini genişləndirməli | Peşəkar biliklərinin genişləndirilməsi üçün xarici peşəkar və ictimai əlaqələrin əhəmiyyətini anlamalı | Özünün peşəkar biliklərinin genişləndirilməsi üçün peşəkar və sosial şəbəkələrin iştirakçısı olmalı | Şagird nailiyyətlərinin və təhsilin keyfiyyətinin artırılması məqsədilə ictimaiyyətlə işgüzar əlaqələr qurmalı, peşəkar şəbəkə və assosiasiyalarda öz təcrübəsini bölüşməli | Peşəkar və sosial şəbəkələrdə lider olmalı, həmkarlarının məktəbdənkənar ünsiyyət dairəsinin genişləndirilməsində onlara kömək göstərməli |